# BSQ.Ədəbiyyat

1. Nağıllar haqqında fikirlərdən hansı doğru deyil?
   - Adətən, “pişrov” adlanan hissə ilə başlayır
   - Lirik növə aiddir
   - Tarixi şəxsiyyətlərlə bağlı nağıllar da var
   - Nağıllar özünəməxsus sonluqla bitir
   - Nağılların sonu nikbin bitir
2. Heca vəznli şeiri ilk dəfə yazılı ədəbiyyata kim gətirmişdir?
   - Qazi Bürhanəddin
   - Füzuli
   - Ş.İ.Xətai
   - Nəsimi
   - Cahan şah Həqiqi
3. Biri əfsanələrin növlərinə aid deyil:
   - Kosmoqonik əfsanələr
   - Zoonomik əfsanələr
   - Etnonimik əfsanələr
   - Sehrli əfsanələr
   - Toponimik əfsanələr
4. Nizami öz həyatı ilə bağlı faktları ilk dəfə hansı poemasında vermişdir?
   - “Yeddi gözəl”
   - “Xosrov və Şirin”
   - “İsgəndərnamə”
   - “Leyli və Məcnun”
   - “Sirlər xəzinəsi”
5. “Şərəfnamə” və “İqbalnamə” N.Gəncəvinin hansı poemanın hissələridir?
   - “Sirlər xəzinəsi”
   - “İskəndərnamə”
   - “Leyli və Məcnun”
   - “Xosrov və Şirin”
   - “Yeddi gözəl”
6. İ.Nəsiminin həyat və yaradıcılığı ilə bağlı səhv fikri göstərin.
   - Gənc yaşlarından Şirvanşahlar sarayında şairlik etmişdir
   - Bir qisim şeirlərində “Hüseyni”, “Seyyid” təxəllüslərindən istifadə etmişdir
   - Əsərlərini 3 dildə (Türk,Fars və Ərəb) yazmışdır
   - Ömrünün son otuz ilində hürufi ideyalarının müxtəlif xalqlar arasında yayılmasına çalışmışdır
   - 1369-cu ildə Şamaxıda anadan olub

7. Orta dövr Azərbaycan ədəbiyyatı hansı əsrləri əhatə edir?
   - XVII-XVIII əsrlər (17-18)
   - XIII-XVIII əsrlər (13-18)
   - XIII-XVI əsrlər (13-16)
   - VII-XIII əsrlər (7-13)
   - X-XX əsrlər (10-20)
8. M.Füzulinin "Leyli və Məcnun" poemasındakı Məcnun surəti ilə bağlı hansı fikir səhvdir?
   - Həyata baxışı dövrün insanları ilə eynidir
   - Yaşadığı cəmiyyətin qayda-qanunları ilə barışmadığı üçün çöllərə düşür
   - Anadan olduğu zaman ağlayır və müəllif buna rəmzi məna verir
   - Ərəb qəbilə başçısının oğludur, əsl adı Qeysdir
   - İnsanlardan qaçaraq təbiətə üz tutur
9. Q.Təbrizi,M.Gəncəvi,Ə.Xaqani yaradıcılığı üçün ortaqdır:
   - Bədii nəsr nümunələri yaratmaları
   - Poema yazmaları
   - Eyni sarayda olmaları
   - Epik əsər yazmaları
   - Fars dilində yazmaları
10. Vaqifin ictimai məzmunlu şeiri hansıdır?
    - "Pəri"
    - "Zeynəb"
    - "Görmədim"
    - "Var"
    - "Yanaram"
11. Aşağıdakı obrazlardan hansıları cəmiyyətdə tutduğu sosial mövqe baxımından bir birindən fərqlənir?
    - Leyli, Məcnun
    - Fitnə, Şirin
    - İsgəndər, Bəhram Gur
    - Keyxosrov, Əfrasiyab
    - Yəzdigird, Feyləquş
12. Mərasim nəğmələrinə aiddir:
    - Laylalar, bayatılar
    - Holavarlar, Sayaçı sözlər
    - Toy nəğmələri, yas nəğmələri
    - Oxşamalar, laylalar
    - Sayaçı sözü, bayatılar
13. Bu janrdan zehnin inkişafı üçün istifadə edilirdi:
    - Dastan
    - Məsəl

- Tapmaca
- Lətifə
- İbarə

14.Biri sayaçı sözlərlə bağlıdır:

- Xalçaçılıq
- Dulusçuluq
- Qoyunçuluq
- Cütçülük
- Əkinçilik

15.XIII əsrdə Azərbaycan dilində ilk dəfə şeir yazan şair kimdir?

- M.Füzuli
- İ.Nəsimi
- Nizami Gəncəvi
- İzəddin Həsənoğlu
- Qurbani

16.Bunlardan biri Vaqifin yaradıcılığına aid deyil:

- "Zeynəb"
- "Pəri"
- "Görmədim"
- "Bax"
- "Narın üz"

17.Molla Pənah Vaqifi kim edam etdirib?

- Qızıl Arslan
- Pənahəli xan
- İbrahim xan
- Ağa Məhəmməd Şah Qacar
- Məhəmməd bəy Cavanşir

18.Şifahi xalq ədəbiyyatı ilə yazılı ədəbiyyatın fərqli cəhətlərinə aid edilə bilməz:

- Şifahi xalq ədəbiyyatı yarandığı dövrün dil-üslub xüsusiyyətlərini qoruyub saxlamır, yazılı ədəbiyyat isə saxlayır
- Şifahi xalq ədəbiyyatı çox variantlı, yazılı ədəbiyyat isə tək variantlıdır
- Şifahi xalq ədəbiyyatının konkret müəllifi var, yazılı ədəbiyyat isə xalqın məhsuludur
- Şifahi xalq ədəbiyyatı yazılı ədəbiyyatın yaranması üçün zəmin yaradır
- Şifahi ədəbiyyat şifahi, yazılı ədəbiyyat isə yazılı yaranıb inkişaf edib

19.Qədim dövr Azərbaycan ədəbiyyatı ilə bağlı yanlış fikri müəyyən edin.

- Dövrün əsas yazılı ədəbiyyatı türk dilində idi.
- Qəsidə ən geniş yayılmış janr idi.
- Ən qədim dövrdən XIII əsrə qədər davam edib.
- Ədəbiyyat daha çox sarayla bağlı idi.
- Avesta kitabında türklərin dini inancları öz əksini tapmışdır.

20.Aşıq Ələsgər yaradıcılığına aid edilə bilməz.

- Müxəmməs
- Cığalı təcnis
- Qəzəl
- Dodaqdəyməz təcnis
- dildönməz gəraylı

21.Vaqifin “Pəri” rədifli şeirinin janrı nədir?

- Təcnis
- Qəzəl
- Qoşma
- Müxəmməs
- Gəraylı

22.“Müsibəti-Fəxrəddin” əsərinin janrını müəyyənləşdirin.

- faciə
- komediya
- povest
- roman
- hekayə

23.Bunlardan biri M.F.Axundzadənin əsəri əsasında çəkilmiş filmdir?

- Təhminə və Zaur
- Əhməd haradadır
- Dərviş Parisi partladır
- Sehrli xələt
- Qaçaq Nəbi

24.Nizami “Xəmsə”sindəki poemaların yazılma ardıcıllığı hansı cavabda düzgün göstərilib? 1. “Sirlər xəzinəsi” 3. “İskəndərnamə” 5. “Leyli və Məcnun” 2. “Yeddi gözəl” 4. “Xosrov və Şirin”

- 1,4,5,2,3
- 1,2,4,3,5
- 2,1,3,4,5
- 1,2,4,5,3
- 3,4,5,2,1

25.Bu janr Aşıq yaradıcılığında Aşıq Ələsgər tərəfindən yaradılmışdır:

- Vücudnamə
- Gəraylı
- Dodaqdəyməz təcnis
- Müxəmməs
- Ustadnamə

26.Qədim dövr Azərbaycan ədəbiyyatı ilə bağlı doğru fikri müəyyən edin.

- Dövrün əsas yazılı ədəbiyyatı türk dilində idi.
- Ədəbiyyat daha çox sarayla bağlı idi.

- Türklərin dini inanclarının yer aldığı Avesta kitabının müəllifi yoxdur.
- Dövrün əsas janrı qəzəl idi.
- Xəmsə müəllifi Xaqani Şirvanidir.

27.Həmzə Qıratı Toqata haradan aparır?

- Dəyirmandan
- Çənlibeldən
- Bağdaddan
- Yoldan
- Yamacdan

28.Azərbaycan ədəbiyyatında dramaturgiyanın banisi kimdir?

- Ş.İ.Xətai
- M.F.Axundzadə
- N.Vəzirov
- N.Nərimanov
- M.Ş.Vazeh

29.Realizmin banisi kimdir?

- Nizami Gəncəvi
- Molla Pənah Vaqif
- İ.Nəsimi
- Şah İsmayil Xətai
- Əlişir Nəvai

30.Biri epik növə aid edilə bilməz:

- Tapmacalar
- Lətifələr
- Atalar sözləri və məsəllər
- Sayaçı sözlər
- Nağıllar

31.Toy, nişan nəğmələri aiddir:

- holavarlar
- sayaçı sözlər
- mövsüm nəğmələri
- mərasim nəğmələri
- məişət nəğmələri

32.Oğuz elinin daxili düşmənidir:

- Şöklü Məlik
- Qaraca Çoban
- Dirsə xanım
- Trabzon təkuru
- Aruz

33.Nizaminin məhəbbət mövzusunda yazdığı ilk poema:
- “Yeddi gözəl”
- “Leyli və Məcnun”
- “Sirlər xəzinəsi”
- “Xosrov və Şirin”
- “İsgəndərnamə”

34.N.Gəncəvinin yaradıcılığına aid səhv fikri tapın:
- Poemalarının hamısı vahid süjet xəttinə malikdir
- Yaradıcılığa lirik şeirlərlə başlamışdır
- O qəzəllərində zəmanə hökmdarlarının adını çəkir
- Ədəbiyyatımızda ilk süjetli poemanın müəllifidir
- Bədii irsindən bizə120 qəzəl, 6 qəsidə, 30 rübai və 5 poeması gəlib çatmışdır

35.Azərbaycan-Qərb ədəbi mədəni əlaqələrinin yaranıb inkişaf etməsində böyük rolu olan şair kimdir?
- Q.Zakir
- Baba bəy Şakir
- Mirzə Şəfi Vazeh
- S.Ə.Şirvani
- M.F.Axundzadə

36.N.Gəncəvinin bütün poemalarına aid edilə bilər: 1. Yazılma şəkli 2. Yazılma dili 3. Əsaslanılmış mənbə 4. Aid olduğu ədəbi dil 5. Poemaların əsas mövzusu
- 2,3,4
- 1,4,5
- 2,3,5
- 1,2,4
- 1,3,5

37.Koroğlu kimə Kaloğlan deyir?
- Bəlli Əhmədə
- Dəli Həsənə
- Eyvaza
- Keçəl Həmzəyə
- Dəmirçioğluna

38.Füzulinin ədəbi irsinə aid olanları seçin: 1. Nəsrlə yazılan məktublar 2. Alleqorik poemalar 3. Farsca nəsr əsərləri 4. Anadlli alleqorik nəsr əsərləri 5. Bir janrdan ibarət eyni dilli divan.
- 2,3,4
- 1,2,3
- 1,2,5
- 2,4,5
- 1,3,5

39.“İsgəndərnamə” poemasından verilmiş bu nümunə kimə aiddir? “Nə gündüz əl çəkir can bəsləməkdən, Nə gecə tanrıya səcdə etməkdən. Vardır qapısında çox xidmətçilər Özünün, işinin qeydini çəkər.”

- İsgəndər
- Nüşabə
- Dara
- Feyləqus
- Pələngər

40.“Folklor” sözünün mənası nədir?

- Ədəbiyyat
- Mədəniyyət
- Etika
- İncəsənət
- Xalq müdrikliyi

41.Ş.İ.Xətai neçənçi ildə və harada anadan olub?

- 1512-ci ildə Xoyda
- 1486-cı ildə Təbrizdə
- 1501-ci ildə Gilanda
- 1514-cü ildə Xorasanda
- 1487-ci ildə Ərdəbildə

42.Azərbaycan ədəbiyyatında ilk süjet xəttinə malik poema hansıdır?

- “Töhfətül-İraqeyn”
- “Dədə-Qorqud”
- “Sirlər xəzinəsi”
- “Leyli və Məcnun
- “Xosrov və Şirin”

43.M.F.Axundzadə ilk komediyasını neçənci ildə yazmışdır?

- 1850-ci il
- 1883-cü il
- 1855-ci il
- 1858-ci il
- 1845-ci il

44.Məhəmməd Füzulinin “Leyli və Məcnun” poeması hansı mövzuda yazılıb?

- siyasi
- qəhrəmanlıq
- ictimai
- məhəbbət
- fəlsəfi

45.“Dəhnamə” məsnəvisində Məşuqəyə ən çox məktub aparan kimdir?

- Ah
- Göz yaşı

- Səba
- Huş
- Bağban

46.Surətlərdən biri Ş.İ. Xətainin “Dəhnamə” poemasında yoxdur:
- Səba
- Məşuqə
- Aşiq
- Əğyar
- Bağban

47.“Koroğlu” dastanında hansı əfsanəvi qüvvələr iştirak edir? 1. Sehirli xalça 2. Qırat 3. Misri qılıncı. 4. Dəlilər 5. Koroğlu.
- 3,5
- 1,3
- 2,3
- 2,4
- 2,5

48.Aşıq Ələsgərin dağların tərənnümünə həsr olunmuş neçə qoşması var?
- 1
- 2
- 3
- 4
- 5

49.“Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah” (M.F. Axundzadə) komediyasındakı qadın obrazlarına aid deyil:
- Xanpəri
- Sona
- Şərəfnisə
- Şəhrəbanu
- Gülçöhrə

50.M.Füzulinin lirikasına aiddir: 1. Məhəbbət motivli şeirləri sufizmin həyata fəlsəfi baxışlarını da ifadə edir 2. Məhəbbət motivli qəzəllərindəki fikirləri fərqləndirmək əsasdır 3. Lirik qəhrəmanı sədaqətli və əzəmətli olmasıilə seçilir 4. Lirikası ilə poema yaradıcılığında məzmunca səsləşmələr müşahidə edilmir
- 1,3
- 2,3
- 1,2
- 2,4
- 3,4

51.M.F.Axundzadənin sonuncu dram əsəridir:
- "Hekayəti xırs quldurbasan"
- "Hekayəti-vəziri-xanı Lənkəran"

- "Hekayəti-mərdi-xəsis" və ya "Hacı Qara"
- "Mürafiə vəkillərinin hekayəti"
- "Aldanmış kəvakib"

52.Hansı nümunələrdən analar yuxudan oyanmış uşağın ovqatını yaxşılaşdırmaq üçün istifadə edirlər?
- Mərasim nəğmələri
- Oxşamalar
- Sayaçı sözlər
- Laylalar
- Mövsüm nəğmələri

53.“İsgəndərnamə” poemasından verilən bu fikirlərin uyğun olduğu obrazları ardıcıllıqla göstərin: 1. Gündüzlər can bəsləməkdən, gecələr səcdə etməkdən əl çəkmirdi. 2. Dara həsədindən bu ədalətli hökmdara xərac verib düşmənlik yolundan əl çəkmişdi. 3. Hinddən başlayaraq Yunana qədər hər yerdə böyükşəhərlər tikdirmişdi.
- Feyləqus, İsəndər, Pələngər
- İsgəndər, Feyləqus, Nüşabə
- Feyləqus, Nüşabə, İsgəndər
- İsgəndər, Feyləqus, İsgəndər
- Nüşabə, Feyləqus, İsgəndər

54.Mövzusu XIX əsr Azərbaycan mülkədarlarının həyatından alınan əsər hansıdır?
- “Müsibəti-Fəxrəddin”
- “Isgəndərnamə”
- “Səfərnamə”
- “Adı var, özü yox”
- “Leyli və Məcnun”

55.“Koroğlu” dastanında Azərbaycanda baş verən hansı tarixi hərəkatın bədii ifadəsi öz əksini tapıb?
- Məzdəkilər hərəkatı
- Qızılbaşlar hərəkatı
- Babillər hərəkatı
- Xürrəmilər hərəkatı
- Cəlalilər üsyanı

56.Salur Qazanın evinin yağmalanması boynda Oğuz bəylərinin ova getdiyini Şöklü Məliyə kim xəbər verir?
- Kafirin casusu görüb, xəbər verir
- Şöklü Məlik özü görür
- Aruz bəy xəbər verir
- Qara Məlik görüb, xəbər göndərir
- Ordan keçən tacirlər görür

57.Şifahi xalq ədəbiyyatında dramatik növün janrlarını müəyyən edin. 1. mahnı. 2. şəbihlər. 3. lətifələr. 4. nağıllar. 5. xalq oyunları. 6. xalq tamaşaları.

- 1,2,6
- 1,2,5
- 2,4,5
- 2,5,6
- 3,4,6

58.Biri heyvanlar haqqında nağıllar sırasında səhv verilib:

- "Tülkünün kələyi"
- "Tülkü və qurd"
- "Çil madyan"
- "Qoca Aslan"
- "Yeddi nar çubuğu"

59.İ.Nəsimi bu təxəllüsü sufi təriqət başçısı Mənsur Hüseyn Həllaca hörmət əlaməti olaraq götürmüşdür:

- Hüseyni
- Seyyidi
- Nəsimi
- Şirvani
- Hürufi

60.Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasında Leylini kim ilə məcburi evləndirirlər?

- Zeyd
- Qeys
- İbn Səlam
- Nofəl
- Fərhad

61.Ş.İ. Xətainin "Dəhnamə" əsəri klassik şeirin hansı formasında yazılmışdır?

- müxəmməs
- məsnəvi
- qəsidə
- qəzəl
- mədhiyyə

62.Mirzə Fətəli Axundzadə harada və neçənçi ildə anadan olmuşdur?

- 1820-ci ildə Tiflisdə
- 1817-ci ildə Şamaxıda
- 1810-cu ildə Gəncədə
- 1812-ci ildə Şəki şəhərində
- 1822-ci ildə Təbrizdə

63.Xotkar hansı hadisədən sonra namə yazıb məclis qurdurur ("Koroğlu" dastanı)?

- Çənlibel

- Toqat
- Bağdad
- Ərzincan
- Qars

64.Nizami Gəncəvinin bu poemasının süjet xətti yoxdur, 20 məqalət və 20 hekayətdən ibarətdir ..... .

- “Sirlər xəzinəsi”
- “Xosrov və Şirin”
- “Leyli və Məcnun”
- “Yeddi gözəl”
- “İskəndərnamə”

65.N.Gəncəvinin “İsgəndərnamə” poemasında verilən bu hissə kimin dilindəndir? “İnan ki, yeməyə yaramaz bu daş, Dünyada onunla ucalarmı baş?”

- Nüşabənin
- İsgəndərin
- Feyləqusun
- Ərəstunun
- Eys ibn-İshaqın

66."Dəhnamə" poeması haqqında verilənlərdən biri yanlışdır:

- Əsər nikbin sonluqla bitir
- "Dəhnamə" poeması şairin ən böyük əsəridir
- Poemada qəzəl, qoşma kimi janrlardan istifadə olunmuşdur
- "Dəhnamə" poeması məsnəvi şəklində yazılmışdır
- Lirik qəhrəmanın dərdinin böyüklüyünü, dərin sarsıntılarını şair məcazlarla əks etdirir

67.Şah İsmayıl Xətainin “Dəhnamə” əsərində Aşiq ilk məktubu Məşuqəyə kimin vasitəsiylə göndərir?

- Ah
- Bağban
- Huş
- Səba
- Gözyaşı

68.Məhəmməd Füzuli və Qasım bəy Zakirlə bağlı ortaq xüsusiyyət:

- Daha çox ilahi eşq məzmunlu şeirlər yazmışdır
- Dövlət tərəfindən ona təqaüd kəsilmişdir
- Nikbin şair olmuşdur
- Təxmis yazmışdır
- "Leyli və Məcnun" poemasını yazmışdır

69.XIX əsrin maarifçiləri kimlər idi?

- Xurşudbanu Natəvan, N.Vəzirov, Q.Zakir
- M.P.Vaqif, M.V.Vidadi,A.Ələsgər

- M.P.Vaqif, Saib Təbrizi Qövsü Təbrizi
- M.Ş.Vazeh, A. Bakıxanov,M.FAxundzadə
- Məhəmməd Əmani, Dirili Qurbani

70.Molla Pənah Vaqif neçənci ildə və harada anadan olmuşdur?

- 1705-ci il; Qıraq Salahlı kəndi
- 1715-ci il; Qıraq Salahlı kəndi
- 1717-ci il; Şuşa
- 1717-ci il; Qıraq Salahlı kəndi
- 1715 -ci il; Şuşa

71.Füzuli qəzəllərinin əsas mövzusunu təşkil edir:

- İlahi məhəbbətin tərənnümü
- Bürokratizmin tənqidi
- Məhəbbət mövzusu
- Real məhəbbətin tərənnümü
- Fəlsəfi məzmun

72.N. Gəncəvi lirik əsərlərini hansı dildə yazmışdır?

- Rum
- Ərəb
- Türk dili
- Fars
- Azərbaycan

73.Aşıq Ələsgərin hansı mövzuda yazılmış əsəri yoxdur?

- ictimai
- təbiət
- məhəbbət
- əxlaqi-tərbiyəvi
- satirik

74.Füzulidən sonra Azərbaycan şeirində lirikanı yeni bir yolla inkişaf etdirən, onu həyat və məişətlə daha dərindən bağlayan şair kimdir?

- Saib Təbrizi
- Molla Pənah Vaqif
- Molla Vəli Vidadi
- Seyid Əzim Şirvani
- Qövsi Təbrizi

75.Bunlardan hansı ədəbiyyatımızda ilk dəfə M.F.Axundzadə tərəfindən təsvir olunmuş obrazdır: 1. qərbli (avropalı). 2. ziyalı. 3. nakam aşiq. 4. xəsislik. 5. mülkədar.

- 2,3
- 2,5
- 3,4
- 1,4
- 1,5

76.Bu aşıqlardan biri Koroğlu eposunda iştirak edir:
- Aşıq Valeh
- Aşıq Ələsgər
- Aşıq Cunun
- Sarı Aşıq
- Xəstə Qasım

77.Yeni dövr Azərbaycan ədəbiyyatının ikinci mərhələsinə aid deyil:
- Maarifçilik ideyaları geniş yayılmışdı
- "Əkinçi" qəzeti ilə milli mətbuatın əsası qoyuldu
- Tənqidi realizmin əsası qoyuldu
- Dramaturgiyanın və povest janrının əsası qoyuldu
- İlk dəfə qoşma janrından istifadə olundu

78."İsgəndərnamə" (N.Gəncəvi) əsərinə əsasən verilən fikirləri obrazlara uyğunlaşdırın 1. Sülhə əhəmiyyət verir,ədalətlidir. 2. Öz zalımlığı ilə seçilən obrazdır. 3. Məğrur hökmdarı ağlı ilə ram edir. a.Nüşabə b.Feyləqus c.Dara.
- 1-c,2-a,3-b
- 1-a,2-c,3-b
- 1-b,2-a,3-c
- 1-b,2-c,3-a
- 1-c,2-b,3-a

79.M.P.Vaqifin şeirlərindən biri məhəbbət məzmunlu qəzəldir?
- "Bəri bax"
- "Küsmüşəm"
- "Görmədim"
- "Bax"
- "Qurban olduğum"

80.Ş.İ. Xətainin "Dəhnamə" məsnəvisində aparıcı mövzu:
- Qəhrəmanlıq
- Məhəbbət
- Vətənpərvərlik
- Dostluq
- Müharibə

81."Mədain xərabələri" və " Töhfətül –İraqeyn" adlı əsərlərin müəllifidir:
- İ.Nəsimi
- N.Gəncəvi
- Q.Təbrizi
- M.Gəncəvi
- Ə.Xaqani

82.Vaqifin yaradıcılığında hansı janr üstünlük təşkil edir?
- Qoşma
- Təcnis

- Qəzəl
- Müxəmməs
- Tuyuğ janrı

83.Hansı janr şifahi xalq ədəbiyyatına aid deyil?
- Lətifə
- Bayatı
- Nağıl
- Tapmaca
- Rübai

84.Biri qəhrəmanlıq dastanıdır:
- “Aşıq Qərib”
- “Qaçaq Kərəm”
- “Tahir və Zöhrə”
- “Əsli və Kərəm”
- “Abbas və Gülgəz”

85.Qədim dövr Azərbaycan ədəbiyyatında kim rübai ustadı hesab edilirdi?
- Füzuli
- İ.Nəsimi
- Şah İsmayıl Xətai
- X.Şirvani
- Məhsəti Gəncəvi

86.“Dədə-Qorqud” dastanı ilə bağlı fikirlərdən biri düzgündür:
- Dastan XVIII əsrdə mürtəce abidə elan edilib
- Boyları düzüb-qoşan Bayandır xandır
- Bütün boylar tarixi səciyyə daşıyır
- Dastan hər biri müstəqil süjet xətti olan boylardan ibarətdir
- Oğuz elinin başçısı Qazan xandır

87.İskəndər Bərdədə olarkən oranın hökmdarı olan türk qızı kim idi?
- Şirin
- Fitnə
- Nüşabə
- Leyli
- Məhinbanu

88.Xətainin məsnəvilərini göstərin. 1. “Müsibətnamə” 2. “Fərhadnamə” 3. “Nəsihətnamə” 4. “Bəxtiyarnamə” 5. “Dəhnamə”
- 1,2,5
- 3,5
- 2,3,4
- 2,5
- 2,4

89.N.Gəncəvinin yaradıcılığı ilə bağlı səhv fikri tapın:
- Bizə gəlib çatan lirik şeirləri Azərbacan və fars dilindədir
- Bütün poemaları klassik üslubda, nəzm formasındadır
- Lirik şeirləri qəzəl, qəsidə, rübai janrlarındadır
- Poemaları fars dilindədir
- Şeirlərində sevgi hissinin insanı mənəvi saflaşdırdığını və ucaltdığını tərənnüm etmişdir

90.Yaradıcılığının ilk dövründə "Hüseyni", "Seyyid" təxəllüsləri ilə yazıb-yaradan sənətkar:
- Şeyx Səfiəddin
- N.Kişvəri
- İ.Həsənoğlu
- Həbibi
- İ.Nəsimi

91.Məntiqi ardıcıllığı tamamlayın. "Bamsı Beyrək", "Qaraca Çoban", .....?
- "Koroğlu"
- "Qazan xan"
- "Qaçaq Nəbi"
- "Babək"
- "Qaçaq Kərəm"

92.Azərbaycan ədəbiyyatında ilk poema hansıdır?
- "İsgəndərnamə"
- "Dədə-Qorqud"
- "Sirlər xəzinəsi"
- "Leyli və Məcnun
- "Töhfətül-İraqeyn"

93.Mahnı janrına aiddir:1. "Qaragilə" 2. "Dəsmalı ver" 3. "Qodu-qodu" 4. "İrəvanda xal qalmadı" 5. "Əl üstə kimin əli"
- 1,4
- 2,4
- 1,3
- 2,5
- 3,5

94.Şah İsmayıl Xətainin "Dəhnamə" məsnəvisində sevgililər niyə qovuşmur?
- Məşuqənin vəfasız çıxdığı üçün
- Məşuqənin başqa sevgilisi olduğu üçün
- Məşuqənin Aşiqi bəyənmədiyi üçün
- Məşuqənin pəri olduğu üçün
- Məşuqənin ailəsi razı olmadığı üçün

95.“Bir şagird ki, ustadına kəm baxa, Onun gözlərinə qan damar, damar” misraları kimə aiddir?

- Aşıq Ələsgər
- M.F.Axundzadə
- Səməd Vurğun
- M.Ə.Sabir
- C.Məmmədquluzadə

96.Q.Zakirin məhəbbətə dair klassik üslubda yazdığı şeirlərində aşağıdakı sənətkarlardan birinin təsiri aydın hiss olunur:

- Q.Bürhanəddin
- Nizami
- Xaqani
- Füzuli
- Nəsimi

97.Qarabağ xanlığında yaşayıb-yaradan sənətkar kimdir?

- Xətai
- Həbibi
- Məsihi
- Q.Təbrizi
- Vaqif

98.“Fars dilli şerlərinə görə dövrünün Hafizi, ana dilindəki əsərlərinə görə dövrünün Füzulisi” adlanan şair kimdir?

- Saib Təbrizi
- Fədai Təbrizi
- M.P.Vaqif
- Məsihi
- M.V. Vidadi

99.Koroğlunun əsl adı nədir?

- Həsən
- Alı
- Xəyal
- Elşən
- Rövşən

100. Yeni dövr Azərbaycan ədəbiyyatı neçə inkişaf mərhələsinə bölünür?

- 5
- 2
- 4
- 3
- 1

101. Ş.İ.Xətai yaradıcılığına aid edilə bilməz?

- Təmsil

- Bayatı
- Gəraylı
- Qəzəl
- Qəsidə

102. Biri M.F.Axundzadənin komediyaları sırasında verilə bilməz:

- “Mürafiə vəkillərinin hekayəti”
- “Hekayəti molla İbrahimxəlil kimyagər”
- “Hekayəti-mərdi-xəsis”
- “Müsibəti-Fəxrəddin”
- “Hekayəti-vəziri-xani Lənkəran”

103. Hansı şifahi xalq ədəbiyyatında epik növün janrıdır?

- hekayə
- nağıl
- povest
- bayatı
- oçerk

104. Heca vəznli şeiri ilk dəfə yazılı ədəbiyyata kim gətirmişdir?

- Qazi Bürhanəddin
- Füzuli
- Ş.İ.Xətai
- Nəsimi
- Cahan şah Həqiqi

105. Biri Nizami Gəncəvinin əsəri deyil:

- “Yeddi gözəl”
- “Sirlər xəzinəsi”
- “İskəndərnamə”
- “Dəhnamə”
- “Xosrov və Şirin”

106. Zakir aşağıdakı janrlarının birində şeir yazmamışdır?

- Qoşma
- Dodaqdəyməz
- Təcnis
- Gəraylı
- Bayatı

107. Füzuli hansı əsəri ilə ana dilində bədii nəsrin əsasını qoymuşdur?

- “Şikayətnamə”
- “Səhhət və Mərəz”
- “Həft cam”.
- “Bəngü Badə”
- “Rindü Zahid”

108. Variantlardan biri ilə bağlı fikir verilməyib. Həmin variant hansıdır? 1. Özündən sonra izah tələb edir 2. Nəzmlə nəsr vəhdətdə olur. 3. Təqlid bacarıqları inkişaf edir. 4. Reallıq aparıcı olur.
- Oyunlar
- Dastan
- Rəvayət
- Məsəllər
- Yanıltmac

109. "Salur Qazanın evinin yağmalandığı boy" ilə bağlı fikirlərdən biri səhvdir:
- Qazan yurdunu sudan, qurddan və köpəkdən soruşdu
- İlək qoca oğlu Sarı Qalmış Qazan bəyin evi üstündə döyüşdə şəhid oldu
- Həm Qazan xan, həm də Qaraca çoban yuxuda qara qayğılı əhvalat gördü
- Qazanxan kafirlərdən birinci oğlu Uruzu istədi
- Qazan xan Qaraca çobanı əmir axur etdi.

110. Nizami hansı poemasını oğlu Məhəmməd vasitəsilə Şamaxı – Şirvan şahlarının sarayına göndərmişdir?
- "Sirlər xəzinəsi"
- "Xosrov və Şirin"
- "Leyli və Məcnun"
- "İsgəndərnamə"
- "Yeddi gözəl"

111. Yalnız məhəbbət dastanları verilmiş cərgəni göstərin.
- "Aşıq Qərib", "Abbas və Gülgəz", "Şah İsmayıl"
- "Səttarxan", "Aşıq Qərib", "Şah İsmayıl"
- "Dədə Qorqud", "Qaçaq Nəbi", "Tahir və Zöhrə"
- "Aşıq Qərib", "Qaçaq Kərəm", "Əsli və Kərəm"
- "Şəhriyyar", "Koroğlu", "Qaçaq Kərəm"

112. Azərbaycan yazılı ədəbiyyatının ilk nümunəsidir ..... .
- "Koroğlu "
- "Kitabi-Dədə Qorqud"
- "Avesta"
- "Dastani- Əhməd hərami"
- "Töhfətül-İraqeyn"

113. Vaqifin ictimai məzmunlu şeiri hansıdır?
- "Pəri"
- "Zeynəb"
- "Görmədim"
- "Var"
- "Yanaram"

114. “Üzük aldım, qaşı yox, Təpə gördüm, daşı yox. O nədi ki, ağlayır, Gözlərinin yaşı yox?” Nümunə şifahi xalq ədəbiyyatının hansı janrına aiddir?

- holavar
- layla
- tapmaca
- lətifə
- nağıl

115. “Koroğlu” eposunda hansı janrda olan şeirlər işlənmişdir? 1. qoşma 2. təcnis 3. gəraylı 4. bayatı 5. müxəmməs.

- 1,3,5
- 2,4,5
- 1,3
- 1,2,4
- 2,3

116. M.P.Vaqifin “Bax” qəzəlini kimə müraciətlə yazılmışdır?

- İbrahim xana
- Molla Vəli Vidadiyə
- Məhəmməd bəy Cavanşirə
- Oğluna
- Qacara

117. Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəmlə bağlı nəğmələr nə adlanır?

- Məişət nəğmələri
- Mərasim nəğmələri
- Qəhrəmanlıq nəğmələri
- Mövsüm nəğmələri
- Əmək nəğmələri

118. “Dədə Qorqud” dastanında oğuz igidlərini birləşdirən əsas cəhət:

- Vətən, yurd sevgisi
- Qohumluq əlaqələri
- Əməyə bağlılıq
- Yüksək səmimiyyət, səxavət
- Birlik

119. İ. Nəsiminin tərcümeyi-halı ilə bağlı səhv fikri göstərin:

- 1417-ci ildə Hələbdə “taun” xəstəliyindən ölmüşdür.
- Şair 1369-cu ildə Şamaxıda doğulmuşdur.
- Şeirlərini “Seyyidi”, “Hüseyini”, “Nəsimi” təxəllüsü ilə yazmışdır.
- “Şirvani” onun nisbəsidir.
- Fəzlüllah Nəiminin “Hürufilik” təriqətini qəbul etmişdir.

120. Məhəmməd Füzulinin poemaları sırasına daxil deyildir:

- "Leyli və Məcnun"
- "Bəngü Badə"

- "Yeddi cam"
- "Fəzliyə nəsihət"
- "Söhbətül-əsmar"

121. XIX əsrin ensiklopedik yazıçısı adlanır.

- Abbasqulu ağa Bakıxanov
- İsmayıl bəy Qutqaşınlı
- Seyid Əzim Şirvani
- Qasım bəy Zakir
- Mirzə Fətəli Axundzadə

122. "Aldanmış kəvakib" əsəri ilə povest janrının əsasını qoyan sənətkar kimdir?

- İ.Qutqaşınlı
- A.Bakıxanov
- N.Nərimanov
- N.Vəzirov
- M.F.Axundzadə

123. Ş.İ.Xətai "Dəhnamə" poemasını neçənci ildə yazmışdır?

- 1502
- 1524
- 1508
- 1506
- 1514

124. Biri Füzulinin alleqorik əsəri deyil:

- "Həft cam"
- "Söhbətül-əsmar"
- "Bəngü Badə"
- "Rindü Zahid"
- "Səhhət və Mərəz"

125. Bu əsərlərdən biri N. Vəzirovun komediyaları sırasına daxil edilə bilməz:

- "Pəhləvani zəmanə"
- "Daldan atılan daş topuğa dəyər"
- "Adı var, özü yox"
- "Yağışdan çıxdıq, yağmura düşdük"
- "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş"

126. Aşıq Ələsgər yaradıcılığına aid edilə bilməz.

- Müxəmməs
- Cığalı təcnis
- Qəzəl
- Dodaqdəyməz təcnis
- dildönməz gəraylı

127. Biri Koroğlunun dəlisi deyil:
- Dəmirçioğlu
- Dəli Həsən
- Uruz
- Eyvaz
- Bəlli Əhməd

128. Şahbaz bəyin Fransaya getməkdə məqsədləri nə idi?(M.F.Axundzadə “Hekayəti-Müsyö Jordan və dərviş Məstəli şah”). 1. Dil öyrənmək. 2. İdarəçilik qabiliyyətin yüksəltmək. 3. Yeni mədəniyyətlə tanışlıq. 4. Şahdan ənam almaq.
- 2,4
- 1,3
- 2,3
- 1,4
- 1,2

129. Azərbaycan ədəbiyyatında bədii realizmin banisidir:
- S.Ə.Şirvani
- M.V.Vidadi
- M.P.Vaqif
- M.Ş.Vazeh
- N.Vəzirov

130. “Salur Qazanın evinin yağmalanması boyu”nda Qaraca Çoban surəti ilə bağlı səhv fikri göstərin.
- Oğuz elinin çobanı
- Oğuz elinin aşağı təbəqəsinin nümayəndəsidir
- Mərdliyi, cəsurluğu ilə Oğuz igidlərindən geri qalmır
- Kafirlərlə döyüşdə iki qardaşı şəhid olur
- Qazan xana xəyanət edir

131. Biri atalar sözüdür:
- Söz dəyirmandakıdır
- Sən çaldın
- Cücəni payızda sayarlar
- İgid ölər, adı qalar
- Doyan o rəhmətlik kimi olar

132. Çənlibelə birinci gələn qadın kim idi?
- Məhbub xanım
- Nigar xanım
- Mərcan xanım
- Hürü xanım
- Dünya xanım

133. M.F.Axundzadənin hansı əsərinin qəhrəmanı xəsisliyin simvolu kimi işlədilir?
- “Hekayəti-xırs quldurbasan”-Tarverdi

- "Hekayəti-mərdi xəsi" – Hacı Qara
- "Hekayəti molla İbrahim xəlil kimyagər"-Hacı Nuru
- "Hekayəti-vəziri xan Lənkəran"- Teymur ağa
- "Hekayəti Müsyö Jordan- həkimi nəbətat və dərviş Məstəli şah cadüküni məşhur"-Şahbaz bəy

134. Hansı şifahi xalq ədəbiyyatının lirik janrına aid edilə bilməz?

- Atalar sözləri
- Bayatılar
- Ağılar
- Nəğmələr
- Mahnılar

135. "Dədə-Qorqud" dastanı ilə bağlı fikirlərdən biri səhvdir:

- Dastan hər biri müstəqil süjet xətti olan boylardan ibarətdir
- Dastanın ilk variantı farsca yazılıb, sonra tərcümə edilib
- Dastan Oğuzların məişətindən, adət -ənənələrindən bəhs edir
- Dastandakı boyların bir qismi islam dinindən əvvəlki dövrə təsadüf edir
- Oğuzların başçısı Bayandur xan olsa da, eposda ondan az danışılır

136. İ.Nəsiminin "Sığmazam" qəzəli ilə bağlı fikirlərdən biri yanlışdır:

- Qəzəl əruz vəzninin rəməl bəhrində yazılıb
- Qəzəl şairin təriqət şeirlərindəndir
- Qəzəl lirik qəhrəmanın monoloqu təsirini bağışlayır
- İdeyası insan və onun böyüklüyünün tərənnümüdür
- Sonuncu beytdə müəllif özünə müraciət edərək keçmişinin ulu olduğunu vurğulayır

137. İ.Nəsimi yaradıcılığına aid deyil:

- Rübai
- Qəzəl
- Qoşma
- Tuyuq
- Müləmmə

138. Tuyuq janrını Azərbaycan ədəbiyyatına gətirən şair kimdir?

- Cahan şah Həqiqi
- Marağalı Övhədi
- D.Qurbani
- Qazi Bürhanəddin
- Arif Ərdəbili

139. Nizami qəzəllərinin əsas mövzusu:

- eşqin tərənnümü
- qadın azadlığı
- təbiət gözəlliklərinin tərənnümü
- fəlsəfi fikirlərin ifadəsi

- ictimai mövzular

140. Keçəl Həmzə Qıratı kimin tapşırığı ilə qaçırır?
- Ərəb Reyhanın
- Xotkarın
- Həsən xanın
- Mahmud paşanın
- Cəfər paşanın

141. Qədim dövr Azərbaycan ədəbiyyatı hansı əsrləri əhatə edir?
- XI-XV əsrləri
- XII-XIII əsləri
- Ən qədim dövrdən XIII əsrə qədər
- Ən qədim dövrdən XII əsrə qədər
- IX –XIII əsrləri

142. Nəğmələr neçə yerə bölünür?
- 5
- 2
- 3
- 6
- 4

143. Bu janr Aşıq yaradıcılığında Aşıq Ələsgər tərəfindən yaradılmışdır:
- Vücudnamə
- Gəraylı
- Dodaqdəyməz təcnis
- Müxəmməs
- Ustadnamə

144. Nizami Gəncəviyə Azərbaycan və dünya ədəbiyyatında ən çox şöhrət qazandıran nədir?
- Rübailəri
- “İskəndərnamə” poeması
- Qəzəlləri
- Qəsidələri
- “Xəmsə”si

145. N. Gəncəvi “Xosrov və Şirin” poemasını kimin xahişi ilə yazmışdır?
- Oğlu Məhəmmədin
- I Axistanın
- Məhəmməd Cahan Pəhləvan
- Qızıl Arslanın
- Əmir Teymurun

146. Hansı əsər bahar fəslinin təsviri ilə başlayır?
- Yusif Məddahın “Vərqa və Gülşa” poeması
- Xaqaninin “Töhfətül-İraqeyn” əsəri

- Nizaminin “Xosrov və Şirin” poeması
- Füzulinin “Leyli və Məcnun” poeması
- Xətainin “Dəhnamə” poeması

147. Aşıq Ələsgər nə zaman və harada anadan olub?
- 1814-ci ildə Tərtərdə
- 1832-ci ildə Gəncədə
- 1826-cı ildə Kəlbəcərdə
- 1821-ci ildə Göyçədə
- 1824-cü ildə İrəvanda

148. XIX əsrdə poeziyamızın mövzu özəlliyi haqqında yanlış fikirdir:
- Aşıq şerinin inkişafı zəifləyir
- Satirik poeziya təşəkkül tapır
- Klassik ənənə uğurla davam etdirilir
- Dramaturgiyanın əsası qoyulur
- Aparıcı mövqeyə malik idi

149. İmadəddin Nəsimi yaradıcılığına aid edilə bilməz:
- İlahi eşqin tərənnümü
- Fəlsəfi fikirlərə geniş yer verilməsi
- Kamil insan motivinin ifadə olunması
- Şeirlərinin əruz vəznində yazılması
- İlk dəfə olaraq tuyuq janrından istifadə etməsi

150. Bunlardan biri Alı kişinin gözlərini dünya işığından məhrum edir:
- Aslan Paşa
- Həsən Xan
- Mahmud Paşa
- Osmanlı Sultanı
- Toqat sultanı

151. Azərbaycan ədəbiyyatında dramaturgiyanın banisi kimdir?
- Ş.İ.Xətai
- M.F.Axundzadə
- N.Vəzirov
- N.Nərimanov
- M.Ş.Vazeh

152. “Əkinçi” qəzetinin yaradıcısı kimdir?
- Abbasqulu ağa Bakıxanov
- Seyid Əzim Şirvani
- Nəcəf bəy Vəzirov
- M.F.Axundov
- Həsən bəy Zərdabi

153. M. F. Axundzadə "Aldanmış kəvakib" əsərini neçənçi ildə yazıb?

- 1850
- 1856
- 1851
- 1857
- 1854

154. Aşıq Ələsgərin ictimai motivli şeirlərini müəyyənləşdir: 1. "Çıxıbdı" 2. "Düşdü" 3. "Narın üz" 4. "Görmədim" 5. "Dağlar" 6. "Çataçat".

- 1,4,5
- 2,3,5
- 2,3
- 1,3,6
- 3,6

155. Yeni dövr Azərbaycan ədəbiyyatının 1-ci mərhələsinin ən görkəmli şairi kimdir:

- Q.Zakir
- M.P.Vaqif
- Fədai Təbrizi
- Saib Təbrizi
- Molla Vəli Vidadi

156. Şah İsmayıl Xətainin yaradıcılığının formalaşmasında rolu olan şairlərdən biri səhv verilib. Səhv cavabı göstər.

- N.Kişvəri
- Y.İmrə
- İ.Nəsimi
- İ.Həsənoğlu
- Q.Bürhanəddin

157. Füzulinin hansı əsərləri qəsidə janrındadır?

- "Türk divanı", "Rind və Zahid"
- "Su", "Xəncər", "Gül"
- "Bəngi-Badə", "Mətləül etiqad"
- "Səhhət və Mərəz", "Su"
- "Həft cam", "Söhbətül əsmar"

158. Orta dövrdə hökmdar şairlər kimlərdir?

- Zülfüqar Şirvani, İmadəddin Nəsimi
- Cahanşah Həqiqi, Zülfüqar Şirvani, N.Kişəvari
- Cahanşah Həqiqi, İmadəddin Nəsimi, Marağalı Əvhədi
- Zülfüqar Şirvani, Ş.İ.Xətai, A.Ərdəbili
- Qazi Bürhanəddin, Ş.İ.Xətai,Cahan şah Həqiqi

159. Nizaminin "Sirlər xəzinəsi" poemasında neçə hekayə və məqalə var?

- 10
- 20

- 25
- 12
- 5

160. Biri nəğmələrin növlərinə aid deyil:

- Mərasim nəğmələri
- Mövsüm nəğmələri
- Toponimik nəğmələr
- Məişət nəğmələri
- Qəhrəmanlıq nəğmələri

161. N. Gəncəvinin İskəndər obrazı ilə bağlı doğru fikri müəyyənləşdirin. 1. Qüdrətli sərkərdə və fatehdir. 2. Onu yalnız öz xoşbəxtliyi düşündürür. 3. Tədbirli və vətənpərvər hökmdardır. 4. Əsər boyu qüsursuz görünür. 5. Dünya ağalığı iddiasına da düşür.6. Ağlı və qüdrəti ilə Nüşabəyə qalib gəlir.

- 1,2,4
- 2,4,6
- 1,3,5
- 3,5,6
- 3,4,6

162. Qədim dövrdə Azərbaycan ədəbiyyatı nümunələri əsasən hansı dildə yaranıb?

- İngilis
- Türk
- Ərəb, fars, türk
- Fars, Ərəb
- Kiril

163. Azərbaycan-Qərb ədəbi mədəni əlaqələrinin yaranıb inkişaf etməsində böyük rolu olan şair kimdir?

- Q.Zakir
- Baba bəy Şakir
- Mirzə Şəfi Vazeh
- S.Ə.Şirvani
- M.F.Axundzadə

164. Ş.İ.Xətai yaradıcılığına aid olan doğru fikri seçin:

- Lirikasında eşqin tərənnümünə birmənalı yanaşıb
- Lirik növdə yazdığı iki poeması var
- Əsərlərində mövzuca səsləşmələr müşahidə edilmir
- Şeirlərində hürufi görüşlər əks olunub
- Əsərlərində əqidə yolunda sadiqliyə çağırış var

165. M.Füzulinin Azərbaycan dilində yazılmış poemalarını müəyyən edin:1. “ Leyli və Məcnun” 2. “Bəngü Badə” 3. “Həft cam” 4. “Söhbətül-əsmar” 5. “Səhhət və mərəz”

- 1,2,4

- 1,4,5
- 2,3,4
- 2,3,5
- Yalnız 3

166. Şah İsmayıl Xətai haqqındakı fikirlərdən biri yanlışdır.

- Həm əruz, həm də heca vəznində şeirlər yazır
- Nəsr əsərləri də vardır
- “Dəhnamə" əsərinin müəllifidir
- Ana dilində yazdığı divanı dövrümüzə qədər gəlib çatmışdı
- Bayatı janrında şeirlər yazmışdır

167. Yeni dövr Azərbaycan Azərbaycan ədəbiyyatı neçə inkişaf mərhələsinə bölünür?

- 1
- 2
- 4
- 5
- 3

168. Vaqifin dostluq etdiyi şair kim idi?

- M.V.Vidadi
- Nəsimi
- M.F.Axundov
- Aşıq Ələsgər
- M.Ş.Vazeh

169. Atəşpərəstliyin müqəddəs kitabı hansıdır?

- “Tövrat”
- “İncil”
- “Avesta”
- “Zəbur”
- “Qurani-Kərim”

170. Nizami Gəncəvi hansı poemasını Məhəmməd Cahan Pəhləvanın sifarişi ilə yazmışdır?

- “Sirlər xəzinəsi”
- “Yeddi gözəl”
- “İsgəndərnamə”
- “Xosrov və Şirin”
- “Leyli və Məcnun”

171. Verilənlər içərisində hansı janra aid nümunə yoxdur. “Qodu-qodu”, “Qarı dağı”, “Qızıl ilan”, “Koroğlu”.

- Lətifə
- Rəvayət
- Əfsanə

- Dastan
- Nəğmə

172. M.P.Vaqifin şeirlərindən biri məhəbbət məzmunlu qəzəldir?
- “Bəri bax”
- “Küsmüşəm”
- “Görmədim”
- “Bax”
- “Qurban olduğum”

173. Şah İsmayıl Xətai ilə bağlı fikirlərdən biri doğrudur:
- Yalnız lirik növdə yazmışdır
- Türk, ərəb, fars dillərində yazmışdır
- “Ayrılır” qəzəli əruz vəzninin həcəz bəhrindədir
- “Bahar oldu ki...” şeiri məsnəvi formasındadır
- Yalnız klassik şer nümunələrindən istifadə etmişdir

174. Mirzə Fətəli Axundzadə harada və kimin yanında dəfn olunub?
- Gəncədə Pişnamazzadənin yanında
- Şəkidə Axund Ələsgərin yanında
- Təbrizdə Mirzə Məhəmməd Tağının
- Şuşada Qasım bəy Zakirin yanında
- Tiflisdə Mirzə Şəfi Vazehin yanında

175. Daha çox bayatıları ilə adını tarixə həkk etdirən aşıq kimdir?
- Sarı Aşıq
- Xəstə Qasım
- Aşıq Ələsgər
- Aşıq Valeh
- Aşıq Abbas Tufarqanlı

176. Aşıq Ələsgərin dağların tərənnümünə həsr olunmuş neçə qoşması var?
- 1
- 2
- 3
- 4
- 5

177. Atalar sözləri məsəllərdən hansı cəhətinə görə fərqlənir?
- Biri nəsr, digəri nəzmlə olur
- Qədimliyinə görə
- Məna dərinliyinə görə
- Ahəngdar və oynaq olmasına görə
- Fikir bitkinliyi var, izaha ehtiyacı yoxdur

178. Qazan xanın evinin yağmalanmasına kim başçılıq edirdi?
- Alp Aruz

- Şöklü Məlik
- Təpəgöz
- Qara Məlik
- Qıpçaq Məlik

179. Ş.İ.Xətainin neçə dildə və neçə ədəd divanı bu günümüzə gəlib çatmışdır?
- 3 dildə və 3 ədəd
- 1 dildə və 1 ədəd
- 1 dildə və 2 ədəd
- 2 dildə və 1 ədəd
- 2 dildə və 2 ədəd

180. Qasım bəy Zakir haqqında yanlış fikir hansıdır?
- Satiranın banisidir
- Həm əruz, həm də heca vəznində yazmışdır
- Dramaturgiyanın əsasını qoymuşdur
- Lirik və epik növlərdə yazmışdır
- M. Füzulinin ədəbi təsiri ilə yazmışdır

181. N. Vəzirov hansı əsəri ilə faciə janrının əsasını qoydu?
- “Daldan atılan daş topuğa dəyər”
- “Adı var, özü yox”
- “Müsibəti-Fəxrəddin”
- “Pəhləvani zəmanə”
- “Yağışdan çıxdıq, yağmura düşdük

182. “Zeynəb”, “Müşgünaz”, “Pəri”, “Güləndam” qoşmanın hansı növünə aiddir?
- Vücudnamə
- Duvaqqapma
- Ustadnamə
- Gözəlləmə
- Qıfılbənd

183. Bayatı haqqında verilənlərdən biri səhvdir.
- Şifahi xalq ədəbiyyatının lirik növünə aiddir.
- Bayatılar 7 hecadan ibarətdir.
- 1,2,4-cü misrlar həmqafiyə, 3-cü misra sərbəstdir.
- Əsas fikir 3-cü,4-cü misralarda verilir.
- Epik növün ən geniş yayılmış janrıdır.

184. “Dədə Qorqud” dastanında yurdunun talandığını görən Salur Qazan yurdunu müxtəlif obyektlərdən soruşur. Həmin obyektləri müəyyən edin. 1. Yurd 2. Qurd 3. Ağac 4. Ozan 5. Su 6. Köpək
- 1,2,3,4
- 1,2,5,6
- 2,3,5,6
- 1,4,5

- 2,1,4

185. Koroğlu nərəsi ilə kimi yerə sərmişdi?
- Dəmirçioğlunu
- Bəlli Əhmədi
- Dəli Həsəni
- Ərəb Reyhanı
- Giziroğlu Mustafa bəyi

186. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatında daha çox istifadə olunan janr hansıdır?
- Qoşma
- Qitə
- Dastan
- Qəzəl
- Müxəmməs

187. Biri epik növə aid deyil:
- sayaçı sözlər
- lətifələr
- əfsanələr
- tapmacalar
- atalar sözləri və məsəllər

188. N. Gəncəvinin hansı poeması iki hissədən ibarətdir?
- "Yeddi gözəl"
- "Sirlər xəzinəsi"
- "Leyli və Məcnun"
- "Xosrov və Şirin"
- "İskəndərnamə"

189. Bu aşıqlardan biri Koroğlu eposunda iştirak edir:
- Aşıq Valeh
- Aşıq Ələsgər
- Aşıq Cunun
- Sarı Aşıq
- Xəstə Qasım

190. XIII əsrə qədərki ədəbiyyata aid olmayan fikirləri seçin: 1. XI-Xll əsrlərdə mədhiyyə ən geniş yayılmış janr idi. 2. İlk anadilli poema yaranır. 3. İlk anadilli "Divan" yazılır. 4. Bədii nəsrin əsası qoyulur. 5. Heca vəzni yazılı ədəbiyyata gətirilir.
- 2,5
- 3,5
- 1,4
- 1,3
- 2,4

191. N. Gəncəvi “Xosrov və Şirin” poemasını neçənçi ildə və kimin sifarişi ilə yazıb?

- 1197-ci ildə Əlaəddin Körpə Arslanın sifarişi ilə
- 1188-ci ildə Şirvanşah Axistanın sifarişi ilə
- 1181-ci ildə Məhəmməd Cahan Pəhləvanın sifarişi ilə
- 1200-cü ildə Nəsrəddin Əbubəkr ibn Məhəmmədin sifarişi ilə
- 1174-cü ildə Fəxrəddin Bəhram şahın sifarişi ilə

192. Lirik növün janrı hansıdır?

- əfsanə
- xalq oyunu
- dastan
- nağıl
- nəğmələr

193. Ş.İ.Xətai nə vaxt və harada dəfn olunmuşdur?

- 1527-ci ildə və Təbrizdə
- 1533-cü ildə və Gilanda
- 1522-ci ildə və Lahicanda
- 1524-cü ildə və Ərdəbildə
- 1530-cu ildə və İraqda

194. M.F.Axundzadənin hansı komediyasında qadın obrazı yoxdur?

- “Aldanmış kəvakib”
- “Hekayəti-mərdi-xəsis”
- “Hekayəti-xırs quldurbasan
- “Mürafiə vəkillərinin hekayəti”
- “Hekayəti-molla İbrahimxəlil kimyagər”

195. Biri məntiqi pozur (mövzu baxımından):

- “Sığmazam”
- “Ağrımaz”
- “Etməgil”
- “Söz”
- “Mənəm, mən”

196. “Rəşid bəy və Səadət xanım” və “Səfərnamə” əsərlərinin müəllifi kimdir?

- Mirzə Şəfi Vazeh
- İsmayıl bəy Qutqaşınlı
- Qasım bəy Zakir
- Baba bəy Şakir
- Xurşidbanu Natəvan

197. Q.Zakirin aşağıdakı şeirlərindən biri qoşma janrında deyil:

- “Durnalar”
- “Eylər”
- “Gözüm yolda qaldı, könül intizar”

- “Gəlsin”
- “Bax”

198. Qızıl Arslan Nizami Gəncəvinin hansı əsərinə görə ona Həmdünyan adlı kənd bağışlayır?
- “İsgəndərnamə”
- “Xosrov və Şirin”
- “Sirlər xəzinəsi”
- “Yeddi gözəl”
- “Leyli və Məcnun”

199. “Dastani Əhməd Hərami” əsərinin müəllifi kimdir?
- Arif Ərdəbili
- Müəllifi yoxdur
- Yusif Məddah
- Qul Əli
- Marağalı Övhədi

200. Aşıq Ələsgərin hansı mövzuda yazılmış əsəri yoxdur?
- ictimai
- təbiət
- məhəbbət
- əxlaqi-tərbiyəvi
- satirik